AZƏRİNŞAAT

PRES RELİZ

"Azərinşaatservis" MMC
Azərbaycan, Bakı, AZ 1108, Dərnəgül qəs., 11-ci Dağlıq k., 3105
**Tel.:** (+994 12) 447 70 03 (04) **Faks:** (+994 12) 565 04 54
www.azerinsaat.com

# "Azərinşaatservis" MMC Bakı-Quba-Rusiya sərhədi avtomobil yolunun km 6-16 hissəsinin tikintisini oktyab ayında başa çatdıracaq.

*"Azərinşaatservis" MMC*
*Bakı, Azərbaycan*
*2009/06/13*

"Azərinşaatservis" MMC "Bakı-Quba-Rusya Federasiyası dövlət sərhədi avtomobil yolunun km 6-16 hissəsninin yenidənqurulması" layihəsi çərçivəsində tikinti işlərini bu ilin oktyabr ayında başa çatdıraraq yolu təhvil verəcək.

Ümumi uzunluğu 208 km olan Bakı-Rusiya Federasiyası dövlət sərhədi avtomobil yolunun yenidənqurulması layihəsi çərçəvəsində "Azərinşaatservis" MMC bu yolun km 6-16 hissəsinin tikintisini sürətlə davam etdirməkdədir. Artıq layihə üzrə görüləcək işlərin 77 %-i başa çatdırılıb. Yolun əsas hissəsində asfalt işləri tamalanıb, yol xətləri çəkilib və yolun kənarları boyunca yol kənar təhlükəsizlik sədləri quraşdırılıb. Yolun 10-cu kilometrə qədər olan hissəsində isə layihəyə uyğun olaraq yol nişanları və informativ lövhələr quraşdırılıb.

Ana yolun uzunluğu 10 km, yan yollarla bərabər tikilən yolun ümumi uzunluğu isə 14,5 km-dir. Yolun əsas hissəsi 6 hərəkət zolağından ibarət olsa da 12-ci kilometrdən sonrakı hissə 8 hərəkət zolağından ibarətdir. Avtomobil yolunun eni əksər yerlərdə 30,5 m olaraq inşa edilir. Ümumilikdə bu layihə çərçəvəsində 2 piyada keçidi və 1 yeni körpü inşa edilir, 3 körpüdə isə yenidənqurma işləri aparılır.

Ümumiyyətlə layihənin icrası zamanı 630 443 $m^3$ topraq işləri görülüb. İndiyə qədər görülən və bundan sonra aparılacaq olan asfalt işlərinin ümumi həcmi isə 201 097 tondur.

*2003-cü ildə qurulan "Azərinşaatservis" MMC Azərbaycanda və Qafqaz regionunda yüksək keyfiyyətli xidmətlər göstərməklə yol və dəmiryolu tikintisi sahəsində aparıcı şirkətlərdən biridir. Şirkət əsas fəaliyyət dairəsi olan avtomobil və dəmiryolu tikintisində A-dan Z-yə bütün növ xidmətləri öz imkanları hesabına həyata keçirir.*

***Mətbuat üçün əlaqəli şəxs:***
**Kənan KƏRİMLİ,** İctimaiyyətlə Əlaqələr və Mətbuat Meneceri
**Tel.:** (+994 12) 447 70 03 (04)
**Mob.:** (+994 55) 208 20 87, (+994 50) 255 38 86
**E-mail**: k.karimli@azerinsaat.com
**www.azerinsaat.com**